**UOT 159.9**

# YENİYETMƏLƏRLƏ APARILAN PSİXOKORREKSİYA İŞİNİN XÜSUSİYYƏTLƏRİ

**Müjgan Zeyniyeva**
**Bakı Dövlət Universiteti**

**Zahid Xəlilov küçəsi – 33. İndeks: AZ 1148**
**E-mail: mujgan.huseynzade1997@mail.com**

*Açar sözlər:* yeniyetmələr, psixoloji yardım, psixokorreksiya, böhran dövrü, metodlar, pozuntu, uşaqlar, korreksiya proqramı.

*Key words:* adolescents, psychological help, psychocorrection, crisis period, methods, violation, children, correctional program.

## GİRİŞ

Müasir dövrdə bütövlükdə cəmiyyət, həm də ailə üçün yeniyetmələr əsas problem olaraq qalır. Yeniyetmələrin psixoloji xüsusiyyətləri əsasən onların yaşadıqları və təlim-tərbiyə aldıqları mühitlə bağlıdır. Bütün bunlar bizə bu problemi müxtəlif aspektlərdən dərindən nəzərdən keçirməyə, bu fenomenin öyrənilməmiş tərəflərini müəyyən etməyə və işlətməyə, düzəldici və profilaktik tədbirlər sistemini inkişaf etdirməyə imkan verir. Yeniyetmələrin deviant və mənfi davranışları ilə bağlı müxtəlif elmi araşdırmalara baxmayaraq bu fenomenin mənəvi yönümlü yanaşma nöqteyi-nəzərindən korreksiyası və qarşısının alınması həm psixologiyada, həm də pedaqogikada kifayət qədər əhatə tapmamışdır.

Son illərdə yeniyetmələrdə akademik göstəriciləri və sosial əlaqələrdə uğur sağlam funksionallığın əsas göstəricisidir. Zəka baxımından normal, ancaq akademik olaraq geriləmələr göstərən və ya yaşıdlarından təcrid olunmuş bir yeniyetmədə nəzərəçarpan dərəcədə psixoloji problemlər müşahidə edilə bilər. Sözsüz ki, belə hallarda bunların yaranma səbəbləri araşdırılmalıdır. Psixokorreksiya və psixoterapiya vasitəsi ilə yeniyetmələrin rastlaşdıqları bir çox çətinlikləri aradan qaldırmaq mümkündür [7, s.1139].

Psixokorreksiya proqramı əsasən şəxsi həyatı və yaşayış tərzi ilə barışmayan, valideynləri və ətrafdakılarla tez-tez münaqişələr yaşayan, öz şəxsiyyətini inkişaf etdirmək arzusunda olan, kliniki baxımdan isə sağlam yeniyetmələrə də tətbiq olunur. İlkin olaraq, gündəlik həyatında psixoloji çətinlikləri, nevrotik əlamətləri, yaxud hər hansısa şikayətləri olan yeniyetmələr psixodiaqnostika yolu ilə psixokorreksiyaya cəlb edilir. Yaranmış problemin ağırlıq dərəcəsindən asılı olmayaraq münaqişəli situasiyalarla, mənfi hadisələrlə üzləşmiş yeniyetmələr korreksiya edilir. Bu zaman isə korreksiya metodları şəxsiyyətin sağlam tərəflərinə yönəldilir.

Psixokorreksiya yayınma və pozuntuların qaydaya salınması, yaşadığı sosial mühitin norma və tələblərinə uyğunlaşdırılması üçün tətbiq edilir. Bu zaman yeniyetmələr haqqında əldə edilmiş diaqnostik informasiyanın təhlili psixokorreksiyanın strategiyasını müəyyən etməyə imkan verir. Bu işlərin düzgün qurulması üçün əsas diqqət əvvəlcə problemin psixoloji şərhinə yönəldilir: diaqnostikanın psixoloji nəticələri öyrənilir, ləngimiş, pozulmuş və ya yayınmış sahələr, proseslər ayırd edilir.

Psixokorreksiya – iki şəxsin bir-biri ilə (və ya psixoloqun qrupla) qarşılıqlı təsiridir. Psixoloji xidmətin digər sahələrindən (psixoloji maarifləndirmə, psixoloji konsultasiya, psixoloji terapiya) fərqli olaraq psixokorreksiya prosesi bilavasitə xidmət göstərilən şəxsin davranışına, fəaliyyət və ünsiyyətinə yönəldilir. Müvafiq model seçilərək onun tətbiqi metodikası müəyyənləşdirilir. Göstərilən korreksiyaedici və inkişafetdirici təsir nəticəsində yeniyetmədə müvafiq dəyişmələr baş verir. Onun həyat fəallığı artır. Üzləşdiyi çətinliklərə münasibəti dəyişir. Sosiallaşma imkanları genişlənir və s. Belə dəyişmələrə aşağıdakılar aiddir:

- Psixi inkişaf dinamikasının artması;
- Emosional dayanıqlığın möhkəmlənməsi;
- Dərketmə imkanlarının genişlənməsi;
- İradi fəallığın və özünüqiymətləndirmə səviyyəsinin yüksəlməsi;
- Uyğunlaşmanın və sosiallaşmanın yaxşılaşması;
- Şəxsiyyətdaxili və ya şəxsiyyətlərarası münaqişənin zəifləməsi;

- Dəyərsizlik, çarəsizlik, səmərəsizlik hissinin itməsi və s.;

Psixokorreksiya prosesini bir sıra əlamətlərinə görə səciyyələndirə bilərik:

- Konkret sahəyə yönəldilməsi;
- Göstərilən təsirlərin yaş normalarına görə uyğunlaşdırılması;
- Cinsi və fərdi fərqlərin nəzərə alınması;
- Etnik psixoloji xüsusiyyətlərin və submədəniyyətin nəzərə alınması [3, s.54].

Psixokorreksiya işi özünün üsul və vasitələrinə, qaydalarına, özünəməxsus çətinliklərə və onun həlli yollarına malikdir. Bu prosesdə qarşıya qoyulmuş məqsədin nədən ibarət olmasına baxmayaraq prinsipcə hər bir korreksiya özünün təşkili qaydalarına və istifadə edilən metodikasına görə seçilir. Bəzi korreksiya işləri nisbətən qısa müddətdə, bəziləri isə uzunmüddətli aparılır. Belə korreksiyalar daha dəqiq nəticələr əldə etməyə imkan verir. Nəticələrin səmərəli olması və yeniyetmənin asan fəaliyyət göstərməsi üçün məqsədli şəkildə lazım olan əlverişli mühit – korreksion şərait yaradılır.

Korreksiya prosesi heç də həmişə əvvəlcədən qarşıya qoyulmuş məqsədlər çərçivəsində həyata keçirilmir. Bəzən prosesin gedişində təsadüfi halların baş verməsi gözlənilməz problemli situasiya yaradır. Bu zaman əsas məqsəd saxlanılmaqla yaranmış problemi aradan qaldırmaq əhəmiyyətlidir. Nəticədə problemin həllinə ləngidici təsir göstərən digər amillər də aşkar edilmiş olur.

Psixokorreksiyanı psixoloji konsultasiya və psixoterapiyadan fərqləndirən cəhət müəyyənləşir. Həmin cəhət budur ki, psixokorreksiya prosesi qiymətləndirmələrin, daxili aləmin dəyişməsi, yeniyetmə tərəfindən özünün problem və çatışmazlıqlarını dərk etməsi, onlara tənqidi yanaşması və aradan qaldırılması üçün səy göstərməsi ilə nəticələnir. Psixokorreksiya, eyni zamanda subyektin öz varlığına, fəaliyyət və davranışına, düşüncələrinə təsir göstərən amillərə yanaşmasında da dəyişmələr əmələ gətirir. Yeniyetmədə özünü inkişaf etdirmək üçün yeni vərdiş və bacarıqlar, səriştələr formalaşdırmaq marağını artırır. Belə subyekt daha çevik, fəal, rəqabətə qabil və yaradıcı olur. Ətraf aləmə, yeni sosial münasibətlərə, təhsil və əmək fəaliyyətinə asan uyğunlaşır, həyat fəaliyyətini sağlam düşüncə ilə tənzimləyir. Özünü reallaşdırır və özünü aktuallaşdırır.

Uşaq və yeniyetmələrlə aparılan psixokorreksiya işləri fərqli məzmunda olduğundan əvvəlcə yaşlar nəzərə alınmaqla spesifiklik özünü biruzə verir. Yeniyetməlik yaş dövründə bir sıra spesifik olan problemlər diqqət mərkəzindədir. Bunlardan biri valideyn, müəllim və həmyaşıdlarla ünsiyyət problemlərinin həllinə yönəlmişdir. Yeniyetməlikdə yaş böhranının təsiri ilə şəxsiyyətdə əmələ gələn emosional-iradi dəyişmələrin düzəldilməsi də nəzərdə tutulan məsələdir. Təhsillə bağlı olan problem isə təlim motivasiyasının və koqnitiv qabiliyyətlərin inkişafıdır. Digərində isə özünüqiymətləndirmə səviyyəsi, intellektual fəaliyyət imkanları, peşə və yaradıcılıq maraqlarının inkişafını prioritet olaraq əsaslandıraraq proqram qurulur [4, s.54].

Yeniyetmələr üçün korreksiya-inkişafetdirici proqramlarında nəzərdə tutulan işlər 3 səviyyədə göstərilir:

1. Korreksiyaedici – inkişafdakı ləngimələr, çətinliklər barədə xəbərdarlıq, həlli yollarını göstərmək, həll etmək;

2. Profilaktik – gözlənilən ləngimə və çətinliklərin qarşısını almaq üçün müvafiq metodlar;

3. İnkişafetdirici – inkişafın məzmun baxımından optimallaşdırılması, stimullaşdırılması və intensivləşdirilməsi.

Psixoloji korreksiya kliyentlə (uşaq, yeniyetmə, gənc və ya yaşlı insan) aparılır. Ona görə də nəticələr bilavasitə yeniyetmənin diaqnostik nəticələri ilə əlaqəli olur. Elə qaydalar da vardır ki, onlar korreksiya prosesində bütün yeniyetmələrə şamil edilir:

1. Tapşırıqları yerinə yetirməyə hazır olmalıdır;

2. Yaradılmış şəraitə görə ona ediləcək hər hansı təsirləri qəbul etməli, özündə əmələ gələn nəticələri hiss etməli, diqqətlə izləməlidir;

3. Nəticələr onun özünə və ya valideyninə izah olunmalıdır;

4. Aparılan iş ayrı-ayrı elementlərdən başlayaraq mürəkkəb hərəkətlərə doğru getməlidir. İstisna hal olaraq, məsələn, təxəyyül və yaradıcılıq kimi sahələrin korreksiyasında bunu nəzərə almamaq olar [2, s.65].

Psixokorreksiya özünün spesifik metodlarına malik deyildir. Bu proses üçün xüsusi metodlar qrupu hələlik müəyyən edilməmişdir. Ona görə də korreksiya prosesində psixoterapiya, pedaqoji psixologiya, kliniki psixologiya, sosial psixologiya, uşaq psixologiyası, eləcə də korreksiyanın aparıldığı sahələrin predmetindən asılı olaraq əhatə dairəsi çox geniş olan müxtəlif vasitə, texnika, priyom və texnologiyalar tətbiq edilir. Metodların seçilməsi və biri-biri ilə əlaqədə qurularaq proqram kimi tətbiq edilməsi də bir çox amillərdən asılıdır. Bu amillərə aşağıdakılar daxildir:

- Yaş dövrü (kliyent hansı yaş mərhələsindədir və ya onun psixoloji yaşı müəyyən edilir);
- Kliyentin fərdi və şəxsiyyətinin özünəməxsus xüsusiyyətləri (şəxsiyyət tipi, intellekt imkanları, təhsil səviyyəsi, mədəni mühiti və s.)
- Somatik və psixi xəstəliklərin olub-olmaması;
- Sosial-maddi durumu;
- Dini mənsubiyyəti;
- Psixokorreksiya motivi

Qeyd etdiyimiz kimi, bu dövrdə müəyyən psixoloji narahatlıqlar özünü daha qabarıq şəkildə biruzə verir. Qeyd edək ki, bir çox psixi pozuntular məhz bu dövrdən etibarən özünü göstərməyə başlayır. Belə hallar yaşayan yeniyetmə ailədən və onu əhatə edən digər insanlardan dəstək görmədikdə bu, daha ağır problemlərin yaranmasına gətirib çıxarır. Nəticədə, bu yaş dövrünü əhatə edən uşaqlarda müəyyən psixoloji problemlər özünü və optimal və səmərəli psixokorreksiya proqramı ilə bunların həlli mümkündür. Nəticə olaraq qeyd edə bilərik ki, yeniyetmələrə psixokorreksiya onların davranışlarını tənzimləməyə, hisslərini anlamağa, qarşılaşdıqları çətinlikləri aradan qaldırmağa kömək edir.

## Ədəbiyyat siyahısı

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı, Qarr-poliqraf, 2003.

2. Əliyev R.İ. Məktəbə psixoloji xidmət: nəzəri və praktik məsələlər. Müasir təhsilin psixoloji problemləri. Bakı: Mütərcim, 2012, s. 21-83
3. Əmrahlı L.Ş. Psixoloji xidmət. I kitab. Psixoloji xidmətin əsasları. Bakı: MBM, 2007, 283 s.
4. Əmrahlı L.Ş. Psixoloji xidmət. II kitab. Psixoprofilaktika. Bakı: Mütərcim, 2010, 204 s.
5. Qədirov Ə.Ə. Yaş psixologiyası. Dərslik, Bakı: Maarif, 2002, 386 s.
6. Vəliyev M., Mustafayev A. İnkişaf və yaş psixologiyası. Bakı, 2015.
7. Kaplan&Sadock, Davranış bilimleri/Klinik Psikiyatri, XI baskı, Güneş tıp kitabevleri, 2006, 4856 s.
8. Connor DF, Mclaughlin TJ, Jeffers-Terry M, O'Brien WH, Stille CJ, Young LM, Antonelli RC, Targeted child psychiatric services: A new model of pediatric primary clinician-child psychiatry collaborative care. Clin Pediatr (Phila). 2006; 45; 423.
9. Romano E, Zocжcolillo M, Paquette D. Histories of child maltreatment and psychiatric disorder in pregnant adolescents J Am Acad Child Adolesc Psychiatry 2006, p. 45, 329
10. http://www.psychologos.ru/articles/view/psihologicheskiykrizis

# THE FEATURES OF PSYCHO-CORRECTİONAL WORK WİTH ADOLESCENTS

**Müjgan Zeyniyeva**

## ABSTRACT

This article studies the features of psychocorrection with adolescents and its analysis. Adolescents' encounters with psychological problems and the importance of effective and optimal construction of psycho-correctional work for this, directs us to address this urgent issue. Examining the features of psycho-correctional work with adolescents allows us to study this problem in more detail by analyzing the scientific literature of local and foreign authors. Here, the characteristics, methods and aspects of psycho-correctionaal work in adolescence, as well as its comparison with other fields of psychological services, are covered. In conclusion, we can note that psychocorrection helps teenagers regulate their behavior, understand their feelings, and overcome the difficulties they face.. In conclusion, it can be noted that psychocorrection helps adolescents regulate their behavior, understand their feelings, and overcome the difficulties they face.

Məqalə Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının iclasnda müzakirə edilərək çapa məsləhət görülmüşdür. (Protokol 3)
Rəyçi: R.V.Cabbarov, psixologiya elmləri doktoru, professor
Məqalə redaksiyaya 13 may 2024-cü ildə daxil olmuşdur.